## AZƏRBAYCAN RESPUBLİKASININ
## ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ

AZ1025, Bakı şəh., Yusif Səfərov küç., 20. Tel.: (+994 12) 490 24 08; faks: (+994 12) 490 33 59, e-mail: office@emdk.gov.az

№ 1101 20906777 «27» 07 2011 il

**Almaniya Federativ Respublikasının**
**vətəndaşı Emma Şirinovaya**

Bakı şəhəri, Azadlıq prospekti. 146/148 ünvanında yaşadığı binanın sökülməsi ilə əlaqədar təklif olunmuş Nərimanov rayonu, Ə. Əliyev küçəsi, 26 ünvanında inşa edilmiş binada ayrılmış mənzildən imtina edilməsi və S. Vurğun küçəsi, 79 ünvanında mənzil ayrılması məsələsinə baxılması barədə 20 iyul 2011-ci il tarixli müraciətinizə Əmlak Məsələləri Dövlət Komitəsində baxılmışdır.

Bununla əlaqədar bir daha nəzərinizə çatdırırıq ki, Bakı şəhəri, Azadlıq prospekti, 154, 146/148 və 150/152 ünvanlarında yerləşən yüksək mərtəbəli binalarda yaşayan sakinlərin və obyektlərin köçürülməsi işi Bakı Şəhər İcra Hakimiyyətinin və Əmlak Məsələləri Dövlət Komitəsinin nümayəndələrindən ibarət köçürmə ilə bağlı yaradılmış komissiya tərəfindən həyata keçirilir. Komissiya tərəfindən Sizə məxsus Bakı şəhəri, Azadlıq prospekti, 146/148 ünvanındakı 56 nömrəli 3 otaqdan ibarət sahəsi 60,1 kv.m olan mənzilin əvəzində beynəlxalq standartlara uyğun yeni tikilmiş Bakı şəhəri, Nərimanov rayonu, Ə. Əliyev küçəsi, 26 ünvanındakı 12 nömrəli binada 3 otaqdan ibarət sahəsi 116,1 kv.m və ya 125,1 kv.m olan yüksək səviyyədə təmir edilmiş mənzil təklif edilmişdir.

Qeyd olunanları nəzərə alaraq, köçürmə ilə bağlı problemlərin həll edilməsi üçün köçürülmə üzrə yaradılmış Komissiyaya müraciət etməyiniz məqsədəuyğundur.

**Hörmətlə,**

**Sədr müavini** **Rüstəm Şahbazov**